Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# 2025-ci ilin I rübü üzrə ELEKTRON BÜLLETEN

# Mündəricat


| | |
|---|---|
| 3-4 | - Xarici kvalifikasiyaların tanınması |
| 5-7 | - Qeyri-formal və informal təhsilin tanınması |
| 8 | - Tələbələr “Keyfiyyət elçisi”nə çevrilir |
| 9 | - Təhsilalanların “Keyfiyyət elçisi” təlimi haqqında təəssüratları |
| 10 | - Ekspertlər üçün təlimlər |
| 11 | - “Tyutor məktəbi” təlim proqramı |
| 12 | Peşə təhsili müəssisələri və akkreditasiya: ekspert hazırlığı prosesi |
| 13 | - İnstitusional akkreditasiya şəhadətnamələri |
| 14 | - Proqram akkreditasiya şəhadətnamələri |
| 15-17 | - Media ilə iş və vətəndaş məmnunluğu |
| 18-19 | - İnstitusional və proqram akkreditasiya qiymətləndirilməsi ilə əlaqədar ekspert müşahidələri |

## Xarici kvalifikasiyaların tanınması

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən həyata keçirilir. Sözügedən qaydaların 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquqşünaslıq ixtisasları (68 ixtisas) üzrə ərizəçilərin TKTA-nın sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçməsi (keçid balını toplaması) tələb olunur.

30 yanvar 2025-ci il tarixində DİM tərəfindən elektron qaydada keçirilən növbəti imtahanda iştirak üçün 268 nəfər müraciətçi qeydiyyatdan keçib və onlardan 241-i imtahanda iştirak edib. 19 ixtisas üzrə müvəffəqiyyət göstəricisi 50% (120 nəfər) təşkil edib. İxtisaslar üzrə iştirak edən və keçid balını toplayan namizədlərin statistikasına nəzər saldıqda, müraciət sayına uyğun olaraq ən çox imtina cavabı “Hüquqşünaslıq” ixtisası üzrə olub. “Hüquqşünaslıq” ixtisası üzrə imtahanda iştirak edən 113 nəfərdən yalnız 15-i uğurlu nəticə əldə edib. Uğursuz nəticə göstərən kvalifikasiya sahibləri əsasən 2 ölkənin ali təhsil müəssisələrinin (ATM) məzunlarıdır.
“Hüquqşünaslıq” ixtisası üzrə Ukrayna ATM-lərindən əldə edilmiş kvalifikasiyalarla peşə tanınması üçün müraciət edən namizədlərin 94%-i, Rusiya Federasiyasının ATM-lərindən məzun olanların isə 84%-i müvafiq imtahanda müvəffəqiyyət qazana bilməyib. Başqa sözlə, Ukrayna ATM-lərindən "Hüquqsünaslıq" ixtisası üzrə diplom əldə edən və peşə tanınması imtahanında iştirak edən 64 nəfərdən yalnız 4-ü, Rusiya Federasiyası ATM-lərindən "Hüquqşünaslıq" ixtisası üzrə diplom əldə edən və peşə tanınması imtahanında iştirak edən 38 nəfərdən yalnız 6-sı təqdim olunan 30 sualdan 15 və daha çoxuna cavab vermək iqtidarında olub.







“Hüquqşünaslıq” ixtisası üzrə peşə tanınması imtahanında ən uğursuz nəticə göstərən kvalifikasiya sahiblərinin təhsil aldığı ölkələr




“Hüquqşünaslıq” ixtisası üzrə peşə tanınması imtahanında uğursuz nəticə göstərən kvalifikasiya sahiblərinin məzun olduqları ATM-lərin siyahısı aşağıda göstərilib:

| Rusiya Federasiyası | Ukrayna |
|---|---|
| **Dağıstan Dövlət Universiteti** | **Xarkov Milli Daxili İşlər Universiteti** |
| **Moskva Müasir Akademik Təhsil İnstitutu** | **Y. Mudrıy adına Milli Hüquq Universiteti** |
| **Saratov Dövlət Hüquq Akademiyası** | **T. Şevçenko adına Kiyev Milli Universiteti** |

Əlavə olaraq, qeyd olunan Qaydaların 4-cü maddəsinin 4.1.1-ci yarımbəndi (müvafiq kvalifikasiyaya dair sənədin əldə olunduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması) tanınma üçün başlıca şərtlərdəndir. Buna müvafiq olaraq, TKTA-ya edilən müraciətlərin təhlili nəticəsində yerli akkreditasiyadan keçməyən və müvafiq dövlət lisenziyası olmadığı üçün ali təhsil sənədlərinə imtina verilmiş ATM-lərin siyahısı 24.04.2025-ci il tarixində yenilənərək TKTA-nın rəsmi internet səhifəsində yayımlanır (https://www.tkta.edu.az/p/diplomlari-taninmayan-universitetlerin-siyahisi). Vətəndaşlarımızı sözügedən siyahını nəzərdən keçirməyə çağırırıq.

**2025-2026-cı tədris ili üzrə xaricdəki ATM-lərə qəbul prosesinin başlandığını nəzərə alaraq, TKTA xaricdə təhsil almaq istəyən vətəndaşlara təhsillərini tamamladıqdan sonra əldə olunan kvalifikasiyanın tanınmasında hər hansı bir çətinliklə qarşılaşmamaları üçün aşağıdakı məqamlara diqqət yetirmələrini tövsiyə edir:**

1. Seçilən ixtisasların Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli, 140 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 dekabr tarixli, 503 nömrəli Qərarı ilə “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı”, “Ali təhsilin əsas (baza ali) tibb təhsili səviyyəsi üzrə ixtisasların Təsnifatı” və “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda yer alması;

2. Kvalifikasiyanın aid olduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması (enic-naric.net keçidindən istifadə etməklə müvafiq məlumatı əldə etmək mümkündür);

3. Nəzərdə tutulmuş təhsilin normativ müddətinin azı yarısı qədər təhsil alınan ölkənin ərazisində olmaq və tədris müddətinin azı üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal təhsilin əldə olunması (tibb və səhiyyə ixtisaslarına münasibətdə təhsilin bütün normativ müddətində təhsil alınan ölkənin ərazisində olmaq);

4. Müvafiq Qaydalara əsasən, ölkə ərazisində yalnız ənənəvi təlim metodlarına əsaslanan formal qaydada əyani və qiyabi təhsilalma formasında (qiyabi “Baytarlıq təbabəti” və “Əczaçılıq” ixtisasları istisna olmaqla) əldə olunmuş kvalifikasiyalara münasibətdə tanınmanın həyata keçirildiyinin nəzərə alınması;

5. Tədris müddətində seçilən dərslərin ixtisasla uyğunluq təşkil etməsi və minimum kredit həcminin qarşılanması;

6. “Açık öğretim” təhsilalma formasında əldə olunmuş kvalifikasiyaların ölkə ərazisində tanınmaması.

## Qeyri-formal və informal təhsilin tanınması

TKTA peşə təhsili üzrə qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması prosesini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"na əsasən həyata keçirir.

### ➢ Əməkdaşlıq və görüşlər

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində görüş**

18 fevral 2025-ci il tarixində keçirilən görüşdə işğaldan azad olunmuş ərazilərdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan şəxslərin Qeyri-formal və informal təhsilin tanınması (QFİTT) prosesinə cəlb edilməsi ilə ixtisaslı kadrların əmək bazarına müsbət təsiri istiqamətləri müzakirə edilib.



**TKTA ilə Dövlət Məşğulluq Agentliyi (DMA) arasında görüş**

20 fevral 2025-ci il tarixində keçirilən görüşdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, DMA-nın İdarə Heyətinin sədri Sadiq Əliyev və hər iki qurumun struktur bölmə rəhbərləri iştirak edib. Görüşün əsas mövzusu peşə hazırlığında əməkdaşlıq imkanları olub. Əmək bazarında işəgötürənlərin tələblərinə uyğun peşəkar kadrların hazırlanması, təhsil proqramlarının, həmçinin Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyəti, qeyri-formal və informal yolla əldə olunmuş bilik, bacarıq, səriştə və təcrübələrin tanınması istiqamətində əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.



**TKTA ilə Milli Observatoriya arasında görüş**

12 mart 2025-ci il tarixində TKTA ilə Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya arasında ikitərəfli görüş keçirilib. Görüş zamanı, qeyri-formal və informal təhsil üzrə peşə ixtisasını təsdiq edən sənəd əldə etmiş şəxslərin əmək bazarına təsirinə dair təhlilin önəmi vurğulanıb.




### ➢ Peşə imtahanları və tanınma

Agentliyə 2025-ci ilin ilk rübü ərzində qeyri-formal və informal yollarla əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin tanınması üzrə ümumilikdə 40 müraciət daxil olub. Təhlillər göstərir ki, "Qənnadçı, şirniyyatçı" peşəsinə müraciətlərin sayı digər sahələrlə müqayisədə üstünlük təşkil edib.

Cari rübdə "Aşpaz" və "Qənnadçı, şirniyyatçı" peşə ixtisasları üzrə qiymətləndirmə və tanınma prosesləri uğurla həyata keçirilib. Nəzəri mərhələdən uğurla keçən 17 nəfərdən 16-sı praktiki imtahanlarda da müvəffəqiyyət göstərərək peşə ixtisasını təsdiq edən sənəd əldə edib.






## Qeyri-formal və informal təhsilin tanınması

### ➢ Təltifetmə tədbirləri










**“Peşəkar Qadınlar” Sosial Layihəsi**
(PAŞA Holding MMC və TKTA)

Qeyd edilən sosial layihə çərçivəsində qadınların peşəkar inkişafına dəstək məqsədilə “Qənnadçı, şirniyyatçı”, “Dərzi”, “Zərgər”, “Bərbər” və “Bərbər-vizajist-manikürçü” peşə ixtisasları üzrə keçirilmiş qiymətləndirmə nəticəsində ümumilikdə 105 qadın müraciətçi imtahanlardan uğurla keçib və sertifikatlarla təltif olunub. Layihənin məqsədi qadınların rifahına və özünüməşğulluq imkanlarının artırılmasına dəstək verməkdir.

**“Sənətin varsa, sənədin olacaq” layihəsi**
(“BP Azərbaycan” və TKTA)

Ümumilikdə 57 nəfər olmaqla, regionlardan olan “Mühafizəçi”, “Poliqrafiya üzrə dizayner”, “Kompüter operatoru”, “Qənnadçı, şirniyyatçı” və “Dərzi” peşələri, eləcə də “Toyota Abşeron Servis” mərkəzinin “Avtomobil mühərriklərinin yığıcısı” ixtisası üzrə bir qrup mütəxəssisinin müvafiq peşə ixtisasının tanınması həyata keçirilib. Məlumat üçün qeyd edək ki, bu layihə hazırda davam edir və miqyası genişləndirilir.

**“Norm Ustalar Klubu” üzvləri üçün tanınma**

QFİTT sahəsində özəl sektorla tərəfdaşlığa dair uğurlu nümunələrdən biri də “Norm Ustalar Klubu” ilə həyata keçirilən müştərək layihədir. Belə ki, 28 fevral 2024-cü il tarixində “Norm” ASC ilə imzalanmış Anlaşma Memorandumu əsasında həyata keçirilən layihə çərçivəsində klubun 30 üzvü “İnşaat ustası” peşə ixtisası üzrə qiymətləndirilməyə cəlb olunub, nəticədə 21 nəfər müvafiq peşə ixtisasını təsdiq edən sənəd əldə edib. Layihə formal təhsili olmayan, lakin praktiki təcrübəyə malik mütəxəssislərin bilik, bacarıq, səriştə və təcrübəsinin rəsmi şəkildə tanınmasını təmin edərək onların əmək bazarına çıxış imkanlarını və rəqabət qabiliyyətini artırır.

### ➢ Sahibkarlarla görüşlər və istehsalat bazalarına baxış

Peşə ixtisasının tanınmasının effektiv və real iş şəraitinə uyğun təşkil olunmasını təmin etmək məqsədilə sahibkarlarla əməkdaşlıq daha da gücləndirilib. Bu rübdə “Honey Cake Studio” MMC-nin direktoru Gülnar Rəsulova ilə “Qənnadçı, şirniyyatçı” və “Aşpaz” ixtisasları üzrə, “İRS Traditional Jewellery”nin təsisçisi Eduard Şamaryayev ilə “Zərgər” ixtisası üzrə, “ATM Mühasiblər Mərkəzi”nin direktoru Radil Fətullayev ilə “Əməliyyatçı-mühasib” ixtisasları üzrə görüşlər keçirilib, eyni zamanda, istehsalat bazalarına baxış zamanı praktiki imtahanların təşkili üzrə texniki və metodoloji məsələlər müzakirə olunub.








## ➢ İmtahan suallarının yenilənməsi

Peşə imtahanlarının daim təkmilləşdirilməsi və əmək bazarının aktual tələblərinə cavab verən sualların hazırlanması məqsədilə tanınması həyata keçirilən 26 peşə ixtisası üzrə müvafiq sahə ekspertləri ilə görüşlər keçirilib, yeni imtahan suallarının hazırlanması prosesinə başlanılıb.

## ➢ İmtahanla bağlı iştirakçıların təəssüratları



**Züryət Məhərrəmova, "Qənnadçı, şirniyyatçı":**

"Salam! Mən TKTA tərəfindən "Qənnadçı" peşə ixtisası üzrə təşkil edilən imtahanlarda iştirak etmişəm və bu prosesdən olduqca razı qalmışam. Əvvəlcə onu demək istərdim ki, imtahanlar yüksək səviyyədə, tam şəffaf və ciddi şəkildə təşkil olunmuşdu. Bu, məndə böyük etimad yaratdı və özümü peşəkar mühitdə hiss etdim. Mənə verilən bu fürsət vasitəsilə illər ərzində topladığım bilik və bacarıqları rəsmi şəkildə təsdiqlətmək imkanı qazandım. Bu, mənim üçün çox önəmlidir, çünki artıq əldə etdiyim sənəd gələcək fəaliyyətimdə mənə yeni imkanlar açacaq. İmtahanın təşkili, qiymətləndirmə prosesi, ekspertlərin peşəkarlığı və ümumilikdə göstərilən münasibət məni çox məmnun etdi. Əgər kimsə bu prosesi necə dəyərləndirdiyimi soruşsa, tərəddüdsüz 10 bal üzərindən 10 verərdim. Əməyi keçən hər kəsə – təşkilatçılara, müəllimlərə, qiymətləndiricilərə və bütün TKTA komandasına dərin təşəkkürümü bildirirəm. Çox sağ olun!"



**Kamalə Kazımova, "Aşpaz":**

"TKTA-nın rəhbərliyinə və bütün əməkdaşlarına belə bir önəmli layihənin həyata keçirilməsində göstərdikləri təşəbbüs və əməklərinə görə dərin təşəkkürümü bildirirəm. Bu layihə xüsusilə Bakı və bölgələrdə yaşayan, gələcək karyeralarında irəliləmək istəyən, lakin rəsmi peşə sənədi olmayan gənclər üçün böyük bir fürsət və stimuldur. Onların bilik və bacarıqlarını tanıtmaq və təsdiq etmək imkanı yaratmaq təqdirəlayiq sosial təşəbbüsdür. İmtahan prosesi tam peşəkar şəkildə təşkil olunmuşdu. Həm nəzəri, həm də praktik mərhələlərdə şəffaflıq və obyektivlik yüksək səviyyədə idi. Qiymətləndirmə ədalətli və əsaslandırılmış şəkildə aparılırdı ki, bu da iştirakçılarda inam və etibar hissi yaradırdı. Bu təşəbbüsün bir parçası olmaqdan böyük məmnunluq duydum və gələcəkdə daha çox insanın bu imkanlardan yararlanacağına inanıram. TKTA-nın gələcək fəaliyyətində davamlı uğurlar və daha çox sosial təsir arzulayıram. Bir daha təşəkkür edirəm!"



**Sevinc Rzayeva, "Qənnadçı, şirniyyatçı":**

"TKTA tərəfindən təşkil olunan və mənim də iştirak etdiyim nəzəri imtahan olduqca ciddi, sistemli və peşəkar şəkildə həyata keçirildi. Verilən suallar "Qənnadçılıq" sahəsinə dair əsas mövzuları əhatə edirdi və real bilik səviyyəsini ölçmək üçün nəzərdə tutulmuşdu. İmtahan üçün ayrılan vaxt kifayət qədər idi və iştirakçılara rahat işləmək imkanı yaradılmışdı. Praktik imtahan isə öz növbəsində yüksək təşkilati səviyyəsi ilə fərqlənirdi. Təcrübə mərhələsi real iş mühiti şəraitində təşkil olunmuş, iştirakçılara öz bacarıqlarını tam nümayiş etdirmək imkanı verilmişdi. İmtahan komissiyası peşəkar heyətdən ibarət idi və onlar bütün prosesi diqqətlə izləyərək, iştirakçıların fəaliyyətini obyektiv meyarlarla qiymətləndirirdilər. Mən bu layihəni, xüsusilə də peşəsi olub sənədi olmayan şəxslərə dəstək məqsədi daşıdığı üçün çox dəyərli və vacib hesab edirəm. Bu təşəbbüs bir çox insan üçün yeni imkanların qapısını açır və cəmiyyətimizdə peşəkar əmək bazarının formalaşmasına töhfə verir. TKTA kollektivinə bu mühüm təşəbbüsə görə təşəkkür edir, gələcək fəaliyyətlərinizdə uğurlar arzulayıram!"

*Bundan əlavə, digər iştirakçıların video müraciətini də QR kodu oxudaraq izləyə bilərsiniz.*

| *Həbibova Xəlsə* | *Əsədova Güləndam* |
| --- | --- |

## Tələbələr “Keyfiyyət elçisi”nə çevrilir



Müasir təhsildə keyfiyyətli təhsil mühitinin təmin edilməsi yalnız akademik və inzibati heyətin deyil, eləcə də tələbələrin fəal iştirakı ilə mümkün olur. Tələbələrin ATM-lərin dinamik inkişafına təsir gücünü artırmaq məqsədilə TKTA tərəfindən “Ali təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin formalaşmasında təhsilalanların rolu” mövzusunda esse müsabiqəsi təşkil edilib. Keçirilən müsabiqədə 19 ATM-dən ümumilikdə, 707 tələbə iştirak edib, onlardan müsabiqənin qalibi olmuş 54 nəfər 11 fevral 2025-ci il tarixində onlayn formatda təşkil edilmiş “Keyfiyyət elçisi” təliminə qatılıb. 26-27 fevral 2025-ci il tarixlərində təşkil edilən təlimin II modulunda isə tələbələr simulyasiya görüşündə iştirak ediblər. İştirakçılar şərti təhsil müəssisəsindəki təhsil mühitini təsvir edən hekayələr əsasında təhsil müəssisələrində mövcud vəziyyəti institusional akkreditasiya qiymətləndirmə meyarlarında əks olunan indikatorlar əsasında təhlil edərək, təqdim olunan suallara əsaslandırılmış cavablar verib və əldə etdikləri nəticələri prezentasiyalarla təqdim ediblər. Təqdimat mərhələsində tələbələr şərti ali təhsil müəssisəsi üzrə verilmiş konkret nümunələr əsasında qiymətləndirmə apararaq təhsil müəssisələrində keyfiyyət siyasətinin optimal təşkili üçün perspektiv fəaliyyətin konturlarını müəyyənləşdirməyə çalışıblar.

TKTA bu təşəbbüslə tələbələrin təhsil aldıqları universitetlərdə “Keyfiyyət elçisi” qismində fəaliyyət göstərərək keyfiyyətli təhsil mühitinin təşkil olunmasını və ATM-in institusional və proqram akkreditasiya qiymətləndirilməsini aparacaq Akkreditasiya Komissiyalarının tərkibində bir üzv kimi çalışaraq töhfə vermələrini hədəfləyib. Tələbələr, keyfiyyətli tədris prosesinin təşkilində təkcə bilik alan tərəf deyil, eyni zamanda təhsildə keyfiyyət tələblərinin formalaşması, tədris prosesinin təkmilləşdirilməsi və institusional mühitin müasirləşdirilməsində fəal iştirak edən əsas maraqlı tərəflərdən biridir. Onların keyfiyyət mədəniyyətinə verdikləri töhfə və tənqidi düşünmə bacarıqları təhsil müəssisələrinin davamlı inkişafına zəmin yaradır.

Təlim proqramında iştirak edən tələbələrin təəssüratları göstərir ki, bu təlim yalnız nəzəri biliklər təqdim etməklə kifayətlənməyib, həm də onların təhsil müəssisələrində aktiv roluna və motivasiyasına səbəb olub.

Təlimin sonunda iştirakçılar "Keyfiyyət elçisi" vəzifəsini öhdələrinə götürərək, əldə etdikləri bilikləri öz təhsil müəssisələrində tətbiq etməyə hazır olduqlarını bildiriblər.

## Təhsilalanların "Keyfiyyət elçisi" təlimi haqqında təəssüratları

"Keyfiyyət elçisi" təlim proqramında iştirak mənim üçün faydalı və maraqlı təcrübə oldu. Təlim prosesində ATM-lərin akkreditasiya Meyarları, keyfiyyət təminatı prinsipləri və tələbələrin bu prosesdəki rolu haqqında ətraflı məlumat əldə etdim. Təlim xüsusilə, real nümunələr əsasında təhlil aparmaq, komanda şəklində çalışmaq və nəticələrimizi təqdim etmək bacarıqlarımı inkişaf etdirdi. Bu proqram tələbələrin yalnız təhsil alan tərəf deyil, eyni zamanda təhsil mühitinin yaxşılaşdırılmasında fəal iştirakçı olduğunu göstərdi. Gələcəkdə universitetdə keyfiyyət mədəniyyətinin formalaşmasına töhfə verməyə və biliklərimi həmyaşıdlarımla bölüşməyə hazır olduğumu hiss edirəm.

Nəzrin Abdullayeva
DİA, Beynəlxalq münasibətlər,
III kurs tələbəsi


#KeyfiyyətElçisi

Zərinə H. • 3rd+
Press Secretary, Trainer
5d •
+ Follow

Qürur və Məsuliyyət: "Keyfiyyət Elçisi" Seçilənlərindən Biri Oldum!

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) həyata keçirdiyi "Keyfiyyət Elçisi" təlim proqramına qəbul olunmaq mənim üçün böyük bir şərəf və məsuliyyətdir!
Bu proqram sadəcə bir təlim deyil – Azərbaycanın təhsil sisteminin gələcəyini formalaşdıran strateji bir təşəbbüsdür! TKTA-nın Akreditasiya Şurasında tələbələrin iştirakını təmin edərək, bizə bu sahədə bilik və bacarıqlarımızı inkişaf etdirmək, sistemin iş mexanizmini yaxından öyrənmək imkanı yaradır.
Bu dəyərli proqramda iştirak etmək fürsətini qazandığım üçün böyük qürur hissi keçirirəm və təhsilimizin inkişafı üçün çalışan Elm və Təhsil Nazirliyi və TKTA kollektivinə dərin təşəkkürümü bildirirəm! Təhsilimizin inkişafı üçün çalışan Elm və Təhsil Nazirliyinə və TKTA-nın bütün kollektivinə uğurlar arzulayıram! Ümid edirəm ki, Azərbaycanın təhsili hər zaman ən yüksək səviyyədə olacaq və biz də bu inkişafın bir parçası ola biləcəyik!
Təhsil daim inkişafda olmalıdır, çünki inkişaf etmiş təhsil – inkişaf etmiş gələcək deməkdir!
Education Quality Assurance Agency
#KeyfiyyətElçisi #TKTA #Təhsildəİnkişaf #AzərbaycanTəhsili #ElmVəTəhsil


Aysu Əbdülova • 2nd
ADA Master of Educational ...
25m • Edited •
Connect

Bugün #TəhsildəKeyfiyyətTəminatıAgentliyində keyfiyyət elçisi kimi fəaliyyətə başladım.

Bu, mənim üçün qürurverici bir yolun başlanğıcıdır. Təhsil müəssisələrinin inkişafında və təhsil keyfiyyətinin yüksəldilməsində bu qurumun müstəsna rolu var. Bu gün bu missiyanın bir parçası olmaq mənim üçün böyük qürurdur.

Eyni zamanda, keyfiyyət təminatı mütəxəssisi olaraq həm ölkəmə, həm də çalışdığım universitetə töhfə verərək təhsilin inkişafına dəstək olmaq üçün əlimdən gələni edəcəyimə inanıram.

Yeni yolumda faydalı işlər görmək ümidilə! #Təhsil #Keyfiyyət #İnkişaf

Təlimdə iştirak edəndə anladım ki, TKTA-nın bir üzvü olduğum üçün çox şanslıyam. TKTA Azərbaycanın ATM-lərində təhsildə keyfiyyəti yüksəltmək üçün əlindən gələni edir və tələbələrin arzu və istəklərinə hörmət edərək onların inkişafı üçün çalışır.

Nübar Fərəczadə
MAA, Hüquqşünaslıq, II kurs tələbəsi

TKTA-da keçirilən görüşdə iştirak etmək bizim üçün çox dəyərli oldu. Görüş zamanı təhsilin inkişafı, mövcud problemlər və onların həlli yolları barədə fikir mübadiləsi apardıq. Sevindirici haldır ki, təkliflərimiz diqqətlə dinlənildi və bu sahədə görüləcək işlər barədə açıq müzakirələr aparıldı. Belə görüşlər təhsilimizin keyfiyyətinin yüksəldilməsi və gələcək inkişafı üçün mühüm rol oynayır. Təşkilatçılara və iştirakçılara təşəkkür edirik!

Altunay İskəndərli
ADPU, SABAH qrupları riyaziyyat və informatika müəllimliyi, V kurs tələbəsi






Agentliyin Təlim və metodologiya şöbəsinin təşəbbüsü ilə ATM-lərdə akkreditasiya qiymətləndirilməsini həyata keçirəcək ekspertlərin seçim prosesi davam etdirilir. Təlimin məqsədi təhsil müəssisələrinin institusional və proqram akkreditasiya qiymətləndirilməsi işinin təşkili zamanı peşəkar ekspertlərin müəyyən edilməsi, hazırlanması, seçilməsi, onların peşəkar səriştələrinin artırılması, kommunikasiya, analitik təhlil, monitorinq və qiymətləndirmə bacarıqlarının üzə çıxarılmasıdır.




Təşkil edilən təlimlərə müxtəlif ATM-lərdə çalışan elmi-pedaqoji heyət üzvləri cəlb olunur. Təlimlər üç modulda təşkil edilir. I və II modulda nəzəri biliklərin artırılması, III modulda isə ekspert namizədlərində praktik bacarıqların formalaşdırılması ilə onların bilik və bacarıqları inkişaf etdirilir.

4 mart 2025-ci il tarixində ATM-lərin akkreditasiya qiymətləndirilməsi üzrə ekspert hazırlığı prosesinin növbəti mərhələsinin başa çatması ilə əlaqədar iştirakçılara sertifikatlar təqdim olunub. Təlimləri uğurla başa vuran ekspertlər, xüsusilə simulyasiya prosesinin onların qiymətləndirmə bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynadığını qeyd ediblər. Onlar bildiriblər ki, bu təlimlər təkcə nəzəri biliklər qazandırmayıb, həm də onları real qiymətləndirmə prosesinə hazırlayıb.

Təhsildə keyfiyyətin təmin olunması naminə atılan hər addım, formalaşan hər yeni ekspert ölkəmizdə təhsilin müasir çağırışlara uyğunlaşmasına və cəmiyyətin perspektiv inkişaf ehtiyaclarının qarşılanmasına öz töhfəsini verəcək.







Eyni zamanda, TKTA Peşə Təhsili Müəssisələrində (PTM) akkreditasiya qiymətləndirilməsi prosesində iştirak edəcək ekspertlərin hazırlanması təliminə başlayıb. I modulda ölkədə fəaliyyət göstərən peşə məktəblərini təmsil edən 35 əməkdaş iştirak edib.

Namizədlərin bu sahədə nəzəri biliklərini artırmaq və praktiki səriştələrini inkişaf etdirmək məqsədilə təlimin II modulu simulyasiya əsasında təşkil edilib. Simulyasiya təlimləri ekspertlərə PTM-lərin akkreditasiyasını qiymətləndirərkən qarşılaşdıqları müxtəlif situasiyaları həll etmək bacarığı qazandırmaq üçün nəzərdə tutulub. İki gün davam edən II modul təlimlərində müxtəlif PTM-ləri təmsil edən 32 namizəd iştirak edib.

## “Tyutor məktəbi” təlim proqramı

TKTA-nın metodoloji dəstəyi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) tyutorluq fəaliyyətinin keyfiyyətinin artırılması məqsədilə həyata keçirilən təlim proqramı 3 moduldan ibarət olmaqla, ümumilikdə 26 saat davam edib. Təlim müddətində peşəkar təlimçilər tərəfindən akademik məsləhətçilərin tələbəyönümlü təhsil mühitinin təşkilində rolu, sahəni tənzimləyən hüquqi aktlar, tyutorun peşə səriştələri və ünsiyyət bacarıqları kimi müxtəlif mövzularda iştirakçılara geniş məlumat verilib, həmin biliklərin real nümunələr əsasında iş prosesində tətbiqinin təhsil müəssisəsi üçün əhəmiyyəti vurğulanıb.




Təlimin sonunda Agentliyin inzibati binasında AzMİU-dan olan akademik məsləhətçilərin iştirak etdiyi “Tyutor məktəbi” təlim proqramı üzrə yekun imtahan təşkil olunub. İmtahanda iştirak edən 22 nəfər təhsil qanunvericiliyi, tələbəyönümlü təhsil, ünsiyyət və peşə bacarıqları istiqamətində nəzəri və praktiki suallar əsasında öz biliklərini nümayiş etdirib.



Yekun qiymətləndirmənin nəticələri əsasında tyutorlara müxtəlif kateqoriyalara uyğun sertifikatların təqdim olunması planlaşdırılır.






## Peşə təhsili müəssisələri və akkreditasiya: ekspert hazırlığı prosesi

Müasir dövrdə peşə təhsilinin inkişafı və onun əmək bazarının tələblərinə uyğunlaşdırılması PTM-lərdə keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir. PTM-lərin fəaliyyətinin obyektiv qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün yüksək ixtisaslı ekspertlərin olması mühüm əhəmiyyət daşıyır. Bu çərçivədə PTM-lərdə akkreditasiya qiymətləndirilməsi prosesində iştirak edəcək ekspertlərin hazırlanması məqsədilə TKTA-da xüsusi təlim proqramı təşkil olunub. Bu təşəbbüs PTM-lərdə təhsilin keyfiyyətinin obyektiv və sistemli qiymətləndirilməsinə töhfə vermək məqsədinə xidmət edir.

PTM-lərin institusional və proqram akkreditasiyası prosesinin keyfiyyətli təşkilinə metodoloji dəstək xidməti kimi nəzərdə tutulan bu təlimlər yeni bir mərhələnin başlanğıcıdır və bu təhsil pilləsində davamlı inkişafı nəzərdə tutur.

**Ekspert hazırlığı təlimi bir neçə mərhələdən ibarətdir:**

- PTM-in institusional və proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları, akkreditasiya prosesi, Akkreditasiya Komissiyasının səlahiyyətləri, hüquqları, sahə səfərləri və Yekun Hesabatın hazırlanması qaydaları namizədlərə izah edilir;
- Real nümunələr əsasında simulyasiya sessiyaları təşkil edilir, namizədlər simulyasiya prosesində I modulda öyrəndikləri nəzəri bilikləri möhkəmləndirir və peşəkar səriştələrini inkişaf etdirir;
- Namizədlər simulyasiya zamanı öyrəndikləri yeni yanaşmalar və şərti PTM-ə aid Özünütəhlil Hesabatı əsasında Yekun Hesabat hazırlayır.



Çoxtərəfli qiymətləndirmənin sonunda uyğun nəticə göstərən namizədlər seçilir və təlimdə uğur qazananlara TKTA tərəfindən sertifikat təqdim olunur. Seçilən ekspertlər PTM-lərdə təşkil olunan institusional və proqram akkreditasiya qiymətləndirilməsi prosesinə cəlb edilir. İlk dəfə TKTA tərəfindən təşkil edilən və PTM-lərdə keyfiyyətli təhsil mühitinin formalaşmasına xidmət edən bu cür təlimlər ölkəmizdə peşə təhsilinin nüfuzunun və keyfiyyətinin yüksəlməsində, həmçinin davamlı inkişafında mühüm rol oynayacaq.

## PTM-lər üzrə Meyarların təsdiqlənməsi: xarici keyfiyyət təminatı PTM-lərin daxili keyfiyyət təminatına necə təsir edəcək?



Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində olduğu kimi PTM-lərdə də daxili keyfiyyət təminatının formalaşmasında xarici keyfiyyət təminatı mühüm rol oynayır. Bu proses ümumi səmərəliliyin, koordinasiyanın və keyfiyyətin davamlı inkişafına töhfə verir.

PTM-lərdə xarici və daxili keyfiyyət təminatı arasında tamamlayıcı bir əlaqə mövcuddur. Belə ki, xarici keyfiyyət təminatı strateji istiqamət və çərçivə təqdim edir, daxili keyfiyyət təminatı da öz növbəsində bu istiqamətləri səmərəli və sistemli şəkildə təhsil müəssisələrinə tətbiq edir.

2024-cü ildə PTM-lərin institusional və proqram akkreditasiyası üzrə akkreditasiya Meyarları təsdiq olunub. TKTA Qəbələ, İsmayıllı, Cəlilabad Dövlət PTM-lərində eləcə də, Rabitə və İnformasiya Texnologiyaları üzrə Bakı Dövlət PTM-ində institusional akkreditasiya qiymətləndirilməsi prosesini həyata keçirib. Peşə təhsili istiqamətində davamlı təkmilləşməni, milli və beynəlxalq standartlara uyğunlaşmanı təşviq edən bu proses ölkəmizdə fəaliyyət göstərən PTM-lərdə dayanıqlı daxili keyfiyyət təminatı sisteminin formalaşmasına, eləcə də bu müəssisələrin davamlı inkişafına zəmin yaradacaq.

**Nigar Əsgərova**
**Akkreditasiya və lisenziya şöbəsinin böyük məsləhətçisi**

## İnstitusional akkreditasiya şəhadətnamələri təqdim edilib

- TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və Agentliyin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) professor-müəllim heyəti arasında görüş keçirilib. T.Əhmədov görüşdə ADNSU-nun institusional akkreditasiyadan keçməsi ilə əlaqədar universitetin kollektivini təbrik edərək, müvafiq akkreditasiya şəhadətnaməsini ATM-in rəhbərliyinə təqdim edib. ADNSU-nun rektor əvəzi Vazeh Əsgərov TKTA rəhbərliyinə və kollektivinə təşəkkür edərək, universitetin növbəti 5 il üçün müvafiq olaraq yeni hədəflərinin müəyyənləşdiriləcəyini və bu istiqamətdə fəaliyyət planının aktiv şəkildə icrasına başlanılacağını qeyd edib.



- Bakı Biznes Universitetində (BBU) TKTA və ATM rəhbərliyi, həmçinin akademik heyət arasında görüş keçirilib. Görüşün keçirilməsində məqsəd ETN-nin Akkreditasiya Şurasının qərarı ilə BBU-nun institusional akkreditasiya qiymətləndirilməsindən keçməsi münasibətilə akkreditasiya şəhadətnaməsinin təqdim edilməsindən ibarət olub. Görüşdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyev və şöbə əməkdaşları iştirak edib.



- Qərbi Kaspi Universitetində (QKU) TKTA rəhbərliyi və əməkdaşlarının iştirakı ilə tədbir keçirilib. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov çıxışında QKU-nun institusional akkreditasiya qiymətləndirilməsindən keçməsi münasibətilə universitetin kollektivini təbrik edib, onlara gələcək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb. Daha sonra akkreditasiya şəhadətnaməsi universitet rəhbərliyinə təqdim edilib.



- Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) rektoru ilə TKTA-nın İdarə Heyətinin sədri arasında ATMU-nun akkreditasiya qiymətləndirilməsi prosesinin yekununa dair görüş keçirilib. Görüşdə ATMU-nun rektoru İlham Mədətov akkreditasiya prosesinin uğurlu keçməsində əməyi olan bütün əməkdaşlara təşəkkürünü bildirib, universitetin bundan sonrakı fəaliyyətində də TKTA ilə qarşılıqlı əməkdaşlığın vacibliyini vurğulayıb. Görüşün sonunda İdarə Heyətinin sədri tərəfindən ATMU-nun rektoruna institusional akkreditasiya şəhadətnaməsi təqdim edilib.



## TKTA tərəfindən ikili diplom proqramlarının akkreditasiya qiymətləndirilməsindən keçməsi ilə bağlı şəhadətnamələrin təqdimetmə mərasimi keçirilib

ETN-nin Akkreditasiya Şurasının qərarı ilə Azərbaycanın 4 ATM-ində (ADA Universiteti ilə Corc Vaşinqton Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti ilə Ege Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə Corc Vaşinqton Universiteti, Bakı Mühəndislik Universiteti ilə İNHA Universiteti arasında) ümumilikdə icra olunan 11 ikili diplom proqramının akkreditasiya qiymətləndirilməsinin nəticələrinə əsasən, müvafiq şəhadətnamələr universitet nümayəndələrinə təqdim edilib.






## Media ilə iş və vətəndaş məmnunluğu

### Media ilə iş:

TKTA-nın fəaliyyət istiqamətinə uyğun olaraq, media resursları ilə əməkdaşlıq çərçivəsində cari ilin I rübündə bir sıra kütləvi informasiya vasitələrində maarifləndirici müsahibə və video-sujetlər yayımlanıb. Eyni zamanda, Agentliyin elektron poçt ünvanına media qurumlarından daxil olan müraciətlər müvafiq olaraq cavablandırılıb.




14 fevral 2025-ci il tarixində “İctimai TV”-nin efirində xarici kvalifikasiyaların tanınması ilə bağlı video-süjet efirə gedib. Bununla bağlı, xarici kvalifikasiyaların tanınması şöbəsinin müdiri Elnur Xəlilov əsas məqamlara toxunub.

(https://www.youtube.com/watch?v=DRkfRFObpcI)




10 fevral 2025-ci il tarixində “AzTV" telekanalında xarici kvalifikasiyaların tanınması qaydaları haqqında video-süjet efirə gedib.

(https://www.youtube.com/watch?v=_v-D7PzPlw8)




19 mart 2025-ci il tarixində xarici diplomların tanınması ilə bağlı “İctimai TV”-nin "Xəbərimiz var" proqramında video-süjet yayımlanıb. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov xaricdə təhsil alanların diplomlarının tanınması ilə bağlı məqamlar barədə məlumat verib.

(https://www.youtube.com/watch?v=WWHIixF9XkY)




11 mart 2025-ci il tarixində “ARB24" telekanalında xaricdə təhsillə bağlı diqqət edilməli məqamlar barədə video-süjet efirə gedib. İnformasiya və insan resursları şöbəsinin müdiri Rövşən Nəzərov bu barədə geniş məlumat verib.

(https://www.youtube.com/watch?v=cV8jB9M1E-I&t=17s)




19 fevral 2025-ci il tarixində “Xarici diplomun Azərbaycanda tanınması üçün nə etməliyik?” mövzusunda "Asan radio"nun efirində “1 sual - 1 cavab” rubrikası təqdim olunub.

(https://www.youtube.com/watch?v=saR3BW7vKqc)

## Vətəndaş qəbulu:

2025-ci ilin I rübü ərzində vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.

Qəbul zamanı vətəndaşlar əsasən, xarici dövlətlərin ATM-lərindən əldə etdikləri kvalifikasiyalarının tanınması ilə bağlı müraciət ediblər.

İdarə Heyətinin sədri, sədrin müavini və müvafiq struktur bölmə rəhbərləri qəbula yazılmış vətəndaşları dinləyib, onların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar veriblər.

Qeyd edək ki, yanvar-mart ayı üzrə qəbul cədvəlinə uyğun olaraq, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən ümumilikdə 149 vətəndaşın qəbulu həyata keçirilib.

Bundan əlavə, yanvar ayı 150, fevral ayı 195, mart ayı 120 olmaqla, ümumilikdə vətəndaş, qurum və təşkilatlardan  465 müraciət daxil olub.

Məlumat üçün bildiririk ki, vətəndaşlar qəbula yazılmaq üçün 146-8 Çağrı Mərkəzinə zəng edərək qeydiyyatdan keçə bilərlər.


















## TKTA və “YAŞAT” Fondu arasında görüş keçirilib

9 yanvar 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və “YAŞAT” Fondunun rəhbəri Elvin Hüseynov arasında görüş keçirilib. Görüş zamanı TKTA ilə “YAŞAT” Fondu arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri haqqında müzakirələr aparılıb. Eləcə də, birgə əməşdaşlığın inkişafı və dərinləşməsinin ölkəmizdə təhsil sisteminin və cəmiyyətimizin tərəqqisi baxımından vacib olduğu qeyd edilib.







## Vətəndaş məmnuniyyəti:

Vətəndaşlar tərəfindən birbaşa olaraq, həmçinin ETN vasitəsilə Agentliyə yönləndirilən müraciətlər və sosial şəbəkələrdən daxil olan sorğular araşdırılaraq müvafiq qaydada cavablandırılıb.

Son altı aylıq dövr ərzində aparılan müqayisəli təhlil nəticəsində Çağrı Mərkəzi xidmətlərinin ümumi keyfiyyətində irəliləyiş müşahidə edilib.
Xüsusilə, cari ilin I rübündə xidmət səviyyəsi orta hesabla 72,52%-dən 79,39%-ə yüksəlib, buraxılmış zənglərin sayı isə təxminən 32% azalıb. Texniki səbəblərə görə itirilən zənglərin tamamilə aradan qaldırılması və operatorların müraciətçi ilə əlaqə saxlama zamanının təxmini ortalama müddətinin 50 saniyə azalması xidmətin texniki və idarəetmə aspektlərinin effektiv şəkildə optimallaşdırıldığını göstərir.



## TKTA-nın fəaliyyəti ilə bağlı ictimai rəylər:


TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Aliyev Emin, Təhsildə Keyfiyyət Təminatı Agentliyi ile birlikte.

Təhsilimi Rusiyada Dövlət və Bələdiyyə İdarəetməsi ixtisası üzrə başa vurduqdan sonra, diplomumun Azərbaycanda tanınması üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (TKTA) 📄✅ müraciət etdim.
📅 Noyabr ayında sənədlərimi təqdim etdim və 🎉 dekabr ayında nostrifikasiya prosesi uğurla tamamlandı! Bildiyiniz kimi həmin ərəfədə ölkədə Bələdiyyə seçkilərinə start verildiyi üçün o zaman bu haqda paylaşım edə bilməmişdim işlərin çoxluğundan.

Bu müddət ərzində Agentliyin göstərdiyi operativ ⏳, şəffaf 🔍 və peşəkar 👏 xidmətə görə dərin minnətdarlığımı bildirirəm. Hər müraciətə diqqətlə yanaşdığınıza və vətəndaşlara dəstək olduğunuz üçün təşəkkür edirəm! 💙

📌 📝 Nostrifikasiya üçün təqdim etdiyim scan olunmuş sənədlər:
✅ 📜 Diplom və diploma əlavə (əsli və notarial təsdiq edilmiş surətinin)
✅ 🎖 Təhsil haqqında apostil və ya leqallaşdırma
✅ 🆔 Pasportun surəti
✅ 🌍 Təhsil müddətində ölkədə olduğumu təsdiq edən sənəd (miqrasiya xidməti və ya universitetdən arayış)
✅ 🖊 Ərizə forması (Agentliyin rəsmi saytı vasitəsilə doldurulmuş)
✅ 💳 Dövlət rüsumunun ödənilməsi barədə qəbz


TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

delara0508 Agentliyin şəffaf və qərəzsiz işləməsi sevindiricidir. Sənədləri düzgün olan hər kəs təsdiq şəhadətnaməsini heç bir problem olmadan əldə edir. Uğurlar...
1d 1 like Reply See translation

Hide replies

ceferov___elsad @delara0508 hardan bilirsen ki, şeffaf işleyir? Senedlerin duzgun olmasi neye gore hessblanir? Evveller deyirdiler dil imtahani vermelisen indi leğv etdiler. Yəni qaydalari saxtadir. Şeffaf bir qurum deyil.
1d Reply See translation

delara0508 @ceferov___elsad mən şəxsən xaricdə təhsil alanların sənədlərini onların saytına göndərirəm və özümə statistik cədvəl tərtib etmişəm. Baxıram ki, 100-də 80 faiz təsdiqlənir. Təsdiqlənməyənlər isə Dağıstan, Rusiya sənədləridir çoxu, hansı ki, universitetinin üzünü görməyiblər. İmtahanlar isə hamı üçün deyil. Müəllimlər, həkimlər, mühəndislər və hüquqşünaslar üçün nəzərdə tutulub. Onlar da məsuliyyətli peşədir, olmalıdır imtahan
1d 1 like Reply See translation

namiqmuradi 👏👏👏👏 parelel ozunuzu bir il menden sonra bitirib @emin.aliyev50 her ikimizin diplomu nostrifikasiya olundu

# İnstitusional və proqram akkreditasiya qiymətləndirilməsi ilə əlaqədar ekspert müşahidələri



**ORXAN İSAYEV**
Azərbaycan Tibb Universitetinin
Beynəlxalq əlaqələr üzrə prorektoru

Akkreditasiya prosesi təhsil müəssisəsini özünü dərindən tanımağa şərait yaradır. Akkreditasiya prosesi zamanı təhsil müəssisəsi öz müsbət və mənfi cəhətlərini aşkarlamağa nail olur. Tibb elmində xəstəlik zamanı diaqnozun qoyulması xəstənin sağalması istiqamətində atılan ilk mühüm addımdır. Belə ki, təhsil müəssisəsinin özünün müsbət və mənfi tərəflərini müəyyən etmək məqsədilə aparılan akkreditasiya prosesi, universitetin inkişaf istiqamətində atılan ilk addımdır və akkreditasiya prosesinin nəticəsində verilən tövsiyələrdən faydalanaraq mənfi halların gələcəkdə aradan qaldırılması istiqamətində fəaliyyət həyata keçirə bilir.

Bəzən cəmiyyətdə akkreditasiya prosesini yoxlama prosesi kimi qəbul edirlər. Hesab edirəm, bu tamamilə yanlış bir fikirdir. Akkreditasiya prosesinin əsas məqsədi ölkənin akkreditasiya prosesinə nəzarət edən qurumu və sahə üzrə təcrübəli ekspertlərin köməyilə universitetin inkişafına dəstək vermək və beləliklə birlikdə ölkədə ali təhsilin səviyyəsini beynəlxalq səviyyəyə qaldırmaqdır.

Akkreditasiya prosesi 3 ünsürdən ibarətdir: akkreditasiya qiymətləndirilməsi keçirilən təhsil müəssisəsi, akkreditasiya prosesinə nəzarəti həyata keçirən agentlik, indiki halda TKTA və ekspertlər. Akkreditasiya prosesinin qayda və qanunlara uyğun həyata keçirilməsində hər bir tərəfin rolu vacibdir. Hesab edirəm ki, TKTA son illər yerli və xarici ekspertlərdən formalaşan ekspert bazası yaratmaqla akkreditasiya prosesinin beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində ciddi addım atmışdır.

Bu davam edən bir prosesdir və beynəlxalq təcrübənin, biliklərin Azərbaycanda akkreditasiya prosesinə inteqrasiyasının xeyrinə olacaqdır. ATM-də sahə səfərində olanda 5 gün ərzində pozitiv və neqativ bir çox hallarla rastlaşırıq. Məni ən çox təəccübləndirən hallardan biri regionda yerləşən ATM-lərdə müsbət anlamda həyata keçirilən işlər və dinamik inkişaf olmuşdur. Bundan başqa, akkreditasiya prosesi zamanı keçirilən müsahibələrdə tələbələrin və akademik heyətin universitet haqqında səmimi fikirləri böyük marağa səbəb olur.

Son illər ETN tərəfindən ATM-lərin beynəlxalq reytinqlərdə yer tutması və mövqeyinin yaxşılaşdırılması istiqamətində aktiv və məqsədyönlü fəaliyyəti müşahidə edilir. Qeyd etmək istərdim ki, bu istiqamətdə institusional və proqram akkreditasiyasının təhsil müəssisələrinə beynəlxalq reytinqlərə hazırlıq prosesində rolu danılmazdır. ETN-in Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli, KQ-05 nömrəli Qərarı ilə təsdiq edilmiş ATM-lərin institusional və proqram akkreditasiyası üzrə qiymətləndirilmə meyarlarına diqqət yetirsək, burada beynəlxalq reytinqlər üçün tətbiq olunan meyarlarla oxşarlıqlar nəzərə çarpır. Beləliklə, akkreditasiyadan keçmiş ATM artıq müəyyən mənada beynəlxalq reytinqlərdə iştirak üçün daha hazırlıqlı olur və proses nisbətən daha rahat keçir. Həmçinin akkreditasiya komissiyası tərəfindən verilən tövsiyələrə ciddi riayət olunması və prosesin monitorinqi çox vacib rol oynayır ki, burada məsuliyyət təhsil müəssisəsinin üzərinə düşür.

Eyni zamanda, beynəlxalq akkreditasiya ATM-lərin inkişafının əsas göstəricilərindən biridir. Beynəlxalq akkreditasiya ATM-in beynəlxalq arenada imicinin formalaşması və beləliklə, universitetə əcnəbi təhsilalanların, akademik heyət və tədqiqatçıların cəlbi, beynəlxalq layihələrin həyata keçirilməsi və ATM-in beynəlxalq nüfuzunun artması nəticəsində ikitərəfli əlaqələrin qurulmasında ciddi rol oynayır. Bildiyiniz kimi, ölkəmizdə əcnəbi təhsilalanların sayının artırılması hədəf kimi müəyyən edilmiş və bu hədəfə nail olmağın əsas yollarından biri də, ATM-lərin əcnəbi vətəndaşlar üçün cəlbedici olmasıdır ki, bu istiqamətdə beynəlxalq reytinqlərlə yanaşı beynəlxalq akkreditasiya da mühüm rol oynayır.

Qeyd etdiyimiz kimi, akkreditasiya prosesi dinamik bir prosesdir və təhsil müəssisələri qarşısında qoyulan hədəflər daim dəyişir. 2000-ci illərdə təhsil müəssisələri qarşısında qoyulan hədəflərlə indiki dövrdə olan hədəflər tamamilə fərqlidir. Bu prosesdə, Azərbaycan Respublikasının sürətli inkişafı, o cümlədən təhsil sahəsində inkişaf və beynəlxalq arenaya aktiv inteqrasiya təhsil müəssisələri qarşısında yeni hədəflər qoyur. Akkreditasiya prosesi ilə əlaqədar bir sıra təkliflər irəli sürmək istərdim. Bunlara ilk olaraq, akkreditasiya prosesinin təhsil müəssisəsinin profilinə uyğun olaraq meyarların müəyyən edilməsi və daha spesifik meyarlar üzərindən aparılmasıdır. Bəzən mövcud qanunvericilikdə nəzərdə tutulan meyarlar təhsil müəssisəsini tam qiymətləndirməyə imkan vermir. Həmçinin, təklif edərdim ki, meyarlara nisbət və ya faizlə ifadə olunan konkret qiymətləndirilmə daxil edilsin. Məsələn, əcnəbi təhsilalanların ümumi təhsilalanlara nisbəti müəyyən bir aralıqda olduqda bu tam uyğun, nisbətən aşağı olduqda əsasən uyğun və s. kimi qiymətləndirilsin.

Bütövlükdə hesab edirəm ki, təhsil müəssisələrinin akkreditasiya proresindən uğurla keçmələri Azərbaycan təhsilinin inkişaf etməsinə öz töhfəsini verəcəkdir.



**Elmina Kazımzadə**
Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Gender və tətbiqi psixologiya kafedrasının dosenti

ATM-lərdə həyata keçirilən proqram akkreditasiyası keyfiyyətin və hesabatlılığın artırılması üçün vacibdir. Həmçinin, proqram akkreditasiyası mövcud proqramın dünyada daim dəyişən tələblərə cavab vermək üçün milli və beynəlxalq standartlara nə dərəcədə uyğun olduğunu qiymətləndirməyə imkan verir. Akkreditasiya ATM-lərin proqramlarının etibarlılığının, dəyərinin və effektivliyinin müəyyən edilməsində mühüm rol oynayır.

Müasir rəqabət mühitində proqram akkreditasiyası keyfiyyət təminatına, təhsil xidmətlərinin müxtəlifliyinə, tələbələrə dəstək xidmətlərinə, fakültənin peşəkar inkişafına və ATM-lər üçün səmərəli bir mexanizmə çevrilir.

Bu prosesinin əhəmiyyətli aspektlərindən biri inamın yaradılmasıdır. Akkreditasiya ATM və onların ixtisas proqramlarına etibarın təməlini yaradır. Akkreditasiya olunmuş proqramlara malik olmaq təşkilatın nüfuzunu artırır.

Tələbələr, müəllimlər və ictimaiyyətdə olan digər maraqlı tərəflər müəssisənin akademik yanaşmalara və keyfiyyətli təhsilə sadiq olduğunu gördükdə onların ATM-ə inamı artır.

Bir digər vacib məqam məsuliyyət və şəffaflıq mədəniyyətinin inkişafıdır. Proqram akkreditasiyası təhsil müəssisələrində məsuliyyət mədəniyyətinin inkişafına kömək edir. Qurumlar öz ixtisas proqramalarının hazırlanması və təmin edilməsi fəaliyyətlərində şəffaflıq və müəyyən edilmiş standartlara uyğunluq nümayiş etdirməlidirlər. Bu hesabatlılıq, idarəçilik, maliyyə idarəetməsi və təhsil təcrübəsi daxil olmaqla, qurumun fəaliyyətinin bütün aspektlərini əhatə edir.

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz